

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

27 DEKABR 2024-cü il CÜMƏ № 287 (8045) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


## Uğur prizmasından 2024-cü ilə baxış




*"Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir". Bu fikirləri Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə deyib. Dövlət başçısı bildirib ki, bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq.*

2024-cü ildə prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, regionun bütün ərazisində keçirildi. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü, xalqımız isə əyilməz ruhunu göstərdi. Ona görə də 2024-cü il bu baxımdan tarixdə yaddaqalan il olacaq. Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib: "Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik". Azərbaycan Prezidentinin söylədiyi fikirlər, xüsusilə də son 21 ildə ölkəmizin istər region, istər beynəlxalq səviyyədə etdiyi əməkdaşlıq, apardığı siyasət çox açıq şəkildə özünü göstərdi. Azərbaycan bütün dövrlərdə bu prinsipləri qoruyub və beynəlxalq birlik tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilir.

2024-cü ildə də Azərbaycan çoxvektorlu xarici siyasətini uğurla davam etdirib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüsləri və strateji addımları nəticəsində ölkəmizin beynəlxalq arenada mövqeyi daha da güclənib, müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı dərinləşdirərək regional və qlobal məkanda önəmli tərəfdaşa çevrilib. Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, görüşləri və bu çərçivədə imzalanan sənədlər mühüm rol oynayıb. Enerji, nəqliyyat və investisiya sahələrindəki razılaşmalar Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artırıb. Dövlətimizin başçısı cari ildə xarici ölkəyə ilk səfərini Münxen Təhlükəsizlik Konfransında iştirak məqsədilə fevralın 16-18-də Almaniyaya edib. Üç gün davam edən səfər çərçivəsində Azərbaycan Prezidenti 24 görüş keçirib. Bu görüşlərin məhz qarşı tərəflərin müraciətlərinə əsasən keçirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun və təşəbbüslərinin qlobal miqyasda qəbul edilməsinin göstəricisidir. Almaniya səfərinin ardından Azərbaycan Prezidenti fevralın 18-19-da qardaş Türkiyədə səfərdə olub. Prezident İlham Əliyevin səfər çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşləri strateji müttəfiqlik və qardaşlıq əlaqələrinin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb. Bundan başqa, Azərbaycan Prezidentinin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də bu ölkəyə işgüzar səfəri zamanı Rusiya dövlətinin başçısı ilə görüşündə iki ölkə arasında iqtisadi əməkdaşlıq, nəqliyyat dəhlizləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər strateji məsələlər müzakirə edilib. Azərbaycan Prezidenti İlham Əliyev, ümumiyyətlə, il ərzində iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərdə olub. Bu səfərlər zamanı Azərbaycan ilə müvafiq dövlətlər arasında siyasi, iqtisadi-ticari, kommunikasiyalar, mədəniyyət, elm-təhsil və digər sahələrə aid mühüm sənədlər imzalanıb, Cənubi Qafqazda sülhün təmin edilməsi istiqamətində dövlətimiz tərəfindən atılan addımlar və ölkəmizin geosiyasi rolu müzakirə olunub.

**(davamı 4-cü səhifədə)**

# Uğur prizmasından 2024-cü ilə baxış

(əvvəli 1-ci səhifədə)

Son 20 ilin sosial-iqtisadi göstəricilərinə əsasən 2003-cü ildə Ümumi Daxili Məhsul 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Dövlət başçısının fərman və sərəncamları əsasında 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunmasını, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılmasını göstərmək olar. Həmin dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,4, müavinət və təqaüd ödənişlərində 5, ünvanlı yardımın orta aylıq məbləğində 2,7, minimum əməkhaqqında 2,7, orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 3 dəfə, əmək müqavilələrinin sayında 609 min (48 faiz) artımın olduğunu görürük. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.











Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) nəinki ölkəmizdə, ümumiyyətlə, dünyada 2024-cü ildə baş tutan ən mötəbər tədbirlərdən biri idi. Tədbirin təşkili və keçirilməsi üçün cəmi 10 ay vaxt sərf edildi ki, bu, zaman baxımından rekord göstərici sayıla bilər. Qısa müddətdə Bakı Olimpiya Stadionunun ərazisi COP29-un keçirilməsi üçün hazır vəziyyətə gətirildi. Stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə tikinti işləri aparıldı, həmçinin 8 hektar ərazidə Yaşıl Zona quruldu. Sammitin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görüldü, lazımi infrastruktur yaradıldı. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının - (COP29) Bakıda uğurla keçdiyini xüsusi qeyd etmək lazımdır. Ölkəmiz indiyədək qazandığı siyasi və iqtisadi nüfuzu bir daha ortaya qoydu. Azərbaycan COP29-a ləyaqətli şəkildə ev sahibliyi etməklə göstərilən etimadı layiqincə doğrultdu. 197 ölkədən aralarında 80 prezident, vitse-prezident və baş nazir olmaqla 76 mindən çox insan Bakıya təşrif buyurdu. İstər qonaqların tədbirin yüksək səviyyədə təşkil olunması barədə fikirləri, istərsə də Bakıda qəbul olunan mühüm qərarlar bunun sübutudur.

İl ərzində ölkədə alternativ enerji mənbələrindən istifadə sahəsində də xeyli irəliləyiş əldə olunub. Yanvar-noyabr ayları ərzində "yaşıl enerji" mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1 617.8 milyon kVt-saat, yəni 80 faizdən çox artaraq 3 580.6 milyon kVt-saat təşkil edib. Ümumiyyətlə, ölkəmiz alternativ enerji mənbələrindən istifadə sahəsində çox inamlı, qətiyyətli addımlar atıb və bu sahədə sürətlə irəliləməkdə davam edir. Qarşıya qoyulan məqsəd isə ondan ibarətdir ki, bu gün dünyada necə ki, neft-qaz ixracatçısı kimi tanınırıq, həm də "yaşıl enerji" ixracatçısı kimi tanınaq. Çünki ölkəmizin bərpaolunan enerji sahəsində real texniki potensialı 135, dənizdə isə 157 giqavat ilə ölçülür.

2024-cü ildə Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.

Qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi, ümumilikdə rəqəmsallaşma prosesləri dünya üzrə yeni və dinamik media mühitinin formalaşmasına gətirib çıxarmışdır. Yeni media mühitində müşahidə edilən tendensiyaların geniş spektrdən təhlili, media sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsi, bu sahədə aparıcı trendlərin izlənilməsi, innovativ təkamülün yaradıcı sənayelər üçün yaratdığı imkanların tətbiq mexanizmlərinin araşdırılması məqsədilə 2024-cü il 20-22 iyul tarixlərində Azərbaycan Respublikasında, Şuşa şəhərində "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forum keçirilmişdir. 50-ə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayıb. Azərbaycan Prezidenti İlham Əliyev Forumda iştirak edib və sualları cavablandırıb.

İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, şəhərlərin, kəndlərin yenidən tikilməsi, əhalinin Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən məskunlaşdırılması, həmin bölgələrdə sosial-iqtisadi infrastrukturun yaradılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdəndir. Bu istiqamətdə işlər cari ildə də yüksək sürətlə və keyfiyyətlə davam etdirilib. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura müntəzəm səfərləri zamanı bərpa-quruculuq işləri ilə tanış olub, yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışlarında, təməlqoyma mərasimlərində iştirak edib. 2024-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri də iqtisadi artıma müsbət təsirini qoruyub saxlayıb və hətta bir az gücləndirib. 44 günlük müharibədən sonra bu işlərə 19 milyard manata yaxın vəsait xərclənib ki, 2024-cü ilin III rübündə daha 755 nəfər (231 ailə) öz doğma torpaqlarına geri qaytarılıb.

Bu il eyni zamanda Azərbaycana gələn yüksək səviyyəli qonaqların sayı və təmsil etdikləri ölkələrin müxtəlifliyi ilə də zəngin olub. Belə ki, ilin əvvəlindən indiyədək Azərbaycan Prezidenti İlham Əliyev təqribən 200-ə yaxın xarici qonaq qəbul edib ki, onlardan da 50-dən çoxu Prezident, Baş nazir və beynəlxalq təşkilat rəhbərləridir. Bu rəqəmlər Azərbaycana beynəlxalq aləmdə marağın nə dərəcədə yüksək olduğunu nümayiş etdirir. Keçirilən görüşlərdə müzakirə olunan məsələlər həyatın bütün sahələrini əhatə edir. Onların arasında ölkəmizlə tərəfdaşlıq əlaqələri qurmaq istəyən, yaxud hazırkı əməkdaşlığı dərinləşdirmək niyyətində olan dövlətlərin nümayəndələri də yer alıblar. Məhz buna görədir ki, xarici ölkə təmsilçiləri Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlıdırlar.

**Mustafa KAMAL,**
**"Respublika".**